Sentyabrın 8-də 11 saylı Bakı Peşə Liseyində respublika peşə təhsili işçilərinin konfransı keçirilib.

Konfransda təhsil naziri Misir Mərdanov çıxış edərək peşə təhsili işçilərini yeni tədris ilinin başlanması münasibəti ilə təbrik edib, işlərində uğurlar arzulayıb.

Son zamanlar ölkədə aparılan sosial-iqtisadi islahatların peşə təhsilinin də müasirləşməsi, maddi-texniki bazasını gücləndirməsi və peşə təhsili sisteminin yeniləşməsi zərurəti yaratdığını deyən nazir ölkə Prezidenti cənab İlham Əliyevin məhz bunu nəzərə alaraq təsdiq etdiyi "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)"nın həmin sahənin inkişafında əhəmiyyətli rol oynadığını bildirib. Nazir öz çıxışında bu Proqramın icrası istiqamətində görüləcək işlər, peşə təhsili sistemi qarşısında duran mühüm vəzifələr, peşə məktəbi və liseylərində bazar iqtisadiyyatının tələblərinə uyğun kadr hazırlığının vəziyyəti, onun yaxşılaşdırılması ilə bağlı həyata keçiriləcək tədbirlərdən, respublikanın ayrı-ayrı bölgələrində yaradılacaq yeni peşə təhsili müəssisələrindən də söz açıb. Bütün bunlarla yanaşı, texniki peşə təhsili sahəsində bir sıra problemlərin də mövcud olduğunu qeyd edən Misir Mərdanov onların aradan qaldırılması, əsaslı islahatların həyata keçirilməsi məqsədi ilə hər kəsin məsuliyyətli olmasının vacibliyini vurğulayıb.

Konfransda Texniki-peşə təhsili şöbəsinin müdiri N. Məmmədov çıxış edərək qeyd olunan sahə ilə bağlı məsələlərə toxunub.

Müzakirələr zamanı peşə təhsili müəssisələri rəhbərlərinin təklifləri səslənib və onları maraqlandıran suallara aydınlıq gətirilib.